*İki il öncə, bu gün Azərbaycan yenidən beynəlxalq diplomatiyanın mərkəzinə çevrildi. Belə ki, martın 2-də Bakıda Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşü keçirildi. Dünyanın dörd bir yanından - Asiyadan, Afrikadan, Latın Amerikasından, hətta Avropadan 70-ə yaxın ölkənin liderləri, nazirlər, beynəlxalq təşkilatların rəhbərləri bu mötəbər tədbirə qatılmaq üçün Bakıya təşrif buyurdular. Azərbaycan bir daha sübut etdi ki, regionla yanaşı, qlobal müstəvidə söz sahibi olan dövlətdir. Zirvə görüşü pandemiyadan sonrakı dövrdə bəşəriyyətin üzləşdiyi problemləri müzakirə etmək və yeni çağırışlara uyğun birgə həll yolları tapmaq məqsədi daşıyırdı. Bu tədbir, eyni zamanda Azərbaycanın beynəlxalq platformalarda liderlik missiyasını uğurla icra etdiyinin bariz nümunəsi idi.*




# Qobal həmrəyliyə mühüm töhfə

Görüşdə çıxış edən Prezident İlham Əliyev Azərbaycanın Qoşulmama Hərəkatına verdiyi töhfələrdən danışaraq vurğuladı ki, ölkəmiz təkcə qlobal çağırışlara cavab verməklə kifayətlənmir, eyni zamanda bu Hərəkatın daha da güclənməsi üçün mühüm addımlar atır. Azərbaycanın təşəbbüsü ilə 2022-ci ildə Bakıda Qoşulmama Hərəkatının Parlament Şəbəkəsinin ilk iclası keçirilib, iyul ayında isə Şuşa Bəyannaməsi əsasında Hərəkatın Gənclər Təşkilatı yaradılıb. Bu yeni institutların məqsədi Hərəkatın davamlılığını təmin etmək, onu daha da gücləndirmək və gələcək nəsillər üçün dayanıqlı bir irs qoymaqdır.

Azərbaycanın COVID-19 pandemiyası dövründə nümayiş etdirdiyi həmrəylik və yardımlaşma prinsipləri də xüsusilə qeyd olunmalıdır. Prezident İlham Əliyevin təşəbbüsü ilə 2020-ci ildə Qoşulmama Hərəkatının pandemiya ilə mübarizəyə həsr olunmuş fövqəladə Zirvə toplantısı keçirilmiş, BMT Baş Assambleyasının xüsusi sessiyası çağırılmışdı. Bundan başqa, Azərbaycan 80-dən çox ölkəyə humanitar və maliyyə yardımı edərək pandemiya ilə mübarizədə əhəmiyyətli rol oynamışdı. Zirvə görüşündə çıxış edən digər liderlər də Azərbaycanın bu istiqamətdə atdığı mühüm addımları yüksək qiymətləndirərək ölkəmizin qlobal arenadakı fəallığını təqdir etdilər. Bakının növbəti dəfə diplomatik mərkəzə çevrilməsi Azərbaycanın beynəlxalq etimad qazandığını və bu etimadı layiqincə doğrultduğunu sübut etdi. Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi beynəlxalq münasibətlər sistemində yeni dinamikanın başlanğıcı oldu. Ölkəmizin liderliyi ilə Hərəkat qlobal proseslərdə daha fəal mövqe sərgilədi, regional və beynəlxalq məsələlərə təsir imkanlarını genişləndirdi. Əgər əvvəllər Qoşulmama Hərəkatı daha çox prinsipial mövqeyi ilə seçilirdisə, Azərbaycan sədrliyi dövründə bu təşkilat qlobal güc balansında aktiv iştirakçıya çevrildi. Hazırda 120 ölkəni birləşdirən Qoşulmama Hərəkatı təkcə beynəlxalq diplomatiyanın deyil, həm də iqtisadi və sosial sahədə dünya siyasətinin mühüm platformalarından biri kimi çıxış edir. Bu, BMT-dən sonra dünyanın ən böyük ikinci beynəlxalq təsisatdır. BMT üzvlərinin üçdə-ikisini özündə birləşdirən Hərəkat dünya əhalisinin 55 faizini əhatə edir. Bu o deməkdir ki, hər iki nəfərdən biri məhz təşkilata üzv olan ölkələrdə yaşayır. Maraqlı bir məqam odur ki, Qoşulmama Hərəkatına üzv dövlətlərdə hər il təxminən 15 trilyon dollar həcmində Ümumi Daxili Məhsul (ÜDM) formalaşır. Bu isə dünya iqtisadiyyatının 15 faizindən çoxuna bərabərdir. Ötən il Hərəkata üzv dövlətlərin ümumi ixracatı 4,5 trilyon dolları ötüb. Belə bir iqtisadi gücə malik təşkilatın qlobal idarəetmədə daha təsirli rol oynaması zərurəti göz önündədir.

Prezident İlham Əliyevin Zirvə görüşündəki çıxışı qlobal idarəetmə sisteminin təkmilləşdirilməsinə ehtiyac olduğunu bir daha gündəmə gətirdi. Dövlət başçısının irəli sürdüyü konkret təkliflər BMT və "Bretton-Vuds" sistemində mövcud mexanizmlərin yenilənməsi, beynəlxalq qurumların daha ədalətli və balanslı qərarlar qəbul etməsi üçün real çağırışdır. Azərbaycanın sədrliyi sübut etdi ki, ölkəmiz təkcə beynəlxalq təşkilatların üzvü deyil, həm də onların iradəsində, gələcək inkişaf strategiyalarının müəyyənləşdirilməsində fəal iştirak edən, öz sözünü deyən, qlobal proseslərə yön verən bir dövlətdir. Azərbaycanın beynəlxalq arenadakı xarici siyasət kursu daim tərəfsizlik, sülh və qarşılıqlı əməkdaşlıq prinsiplərinə əsaslanıb. Tarix boyu geosiyasi təlatümlərə baxmayaraq, ölkəmiz müstəqil və balanslı diplomatiya aparmaqla dünya siyasətində özünəməxsus yer tutub. Rəsmi Bakı bu gün qlobal diplomatik proseslərdə aparıcı oyunçulardan birinə çevrilərək beynəlxalq münasibətlərin inkişafına töhfə verir. Ölkəmiz Qoşulmama Hərəkatının fəaliyyətinə yeni nəfəs gətirib, onun beynəlxalq nüfuzunu xeyli artırıb. Bir zamanlar daha çox passiv mövqedə dayanan bu qurum Azərbaycanın sədrliyi dövründə dünya siyasətində əhəmiyyətli bir güc mərkəzinə çevrildi.

**(davamı 2-ci səhifədə)**



# Qlobal həmrəyliyə mühüm töhfə

(əvvəli 1-ci səhifədə)

Qoşulmama Hərəkatının BMT-yə alternativ beynəlxalq platforma kimi möhkəmlənməsi məhz Azərbaycanın həyata keçirdiyi aktiv siyasətlə birbaşa bağlıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə Hərəkat real nəticələr əldə edən, qlobal problemlərə çevik cavab verən təsisat olaraq formalaşdı. Bakıda keçirilən Qoşulmama Hərəkatının COVID-19-a qarşı mübarizə üzrə Təmas Qrupunun Zirvə görüşündə ölkə başçısı vurğuladı ki, dünya düzəni yenidən formalaşır və Qoşulmama Hərəkatı bu prosesdə fəal iştirak etməlidir.

Ölkə başçısı Zirvə görüşü zamanı neokolonializmlə mübarizə, eyni zamanda müstəmləkəçilik ideyalarını davam etdirən dövlətlərin bu gün də mövcud olduğunu xatırlatdı: "Təəssüf ki, bu gün biz neokolonializm meylinin artdığını müşahidə edirik. Tarixi müstəmləkəsizləşdirmə prosesi nəticəsində yaranmış Qoşulmama Hərəkatı bəşəriyyətin bu rüsvayçı səhifəsinin tamamilə aradan qaldırılması istiqamətində səylərini birləşdirməlidir. Qoşulmama Hərəkatı Qəmər Adaları İttifaqının Fransanın müstəmləkə hakimiyyəti altında qalmaqda davam edən Mayot adası üzərində şəksiz suverenliyini həmişə güclü dəstəkləmişdir. Qoşulmama Hərəkatının təməl sənədlərində əks olunduğu kimi, biz Fransa hökumətini Yeni Kaledoniya xalqının və Fransanın dənizaşırı icma və ərazilərindəki digər xalqların hüquqlarına hörmət etməyə çağırırıq. Fransanın Avropadan kənarda idarə etdiyi ərazilər fransız müstəmləkə imperiyasının iyrənc qalıqlarıdır. Biz, həmçinin Fransanı Afrika, Cənub-Şərqi Asiya və digər ərazilərdə Qoşulmama Hərəkatının üzvü olan ölkələrə qarşı müstəmləkə keçmişinə, qanlı müstəmləkə cinayətlərinə, eləcə də soyqırımı aktlarına görə üzr istəməyə və məsuliyyətini etiraf etməyə çağırırıq". Azərbaycanın bu mübarizəyə dəstəyi də xüsusi vurğulandı. Bu gün müstəmləkəçiliyin "beşiy"inə çevrilmiş Fransa kimi dövlətlərin ölkəmizə qarşı yürütdüyü qərəzli siyasətin də kökündə məhz rəsmi Bakının bu məsələdəki qətiyyətli mövqeyi dayanır.

Qeyd edək ki, dünyada hegemon güclərin toqquşmaları, siyasi qütbləşmələr və bloklaşmalar əsrlər boyu dövlətlərin xarici siyasətində məhdudiyyətlər yaradan əsas amillərdən biri olub. Lakin bəzən ən mühüm siyasi hadisələr güclü aktorların deyil, məhz müstəqil və balanslı mövqe tutan dövlətlərin iştirakı ilə formalaşır. Bu baxımdan, Qoşulmama Hərəkatının yaranması və inkişafı beynəlxalq münasibətlər sistemində yeni bir siyasi xətin təməlini qoydu. Bu gün artıq qlobal diplomatiyanın mühüm çoxtərəfli mexanizmlərindən birinə çevrilib. Hərəkatın yaranma tarixinə nəzər salsaq, onun əsasının 1955-ci ildə İndoneziyanın Bandunq şəhərində keçirilən Asiya-Afrika Konfransında qoyulduğunu görərik. Məhz burada qəbul edilən qərarlar nəticəsində 1961-ci ilin 1-6 sentyabr tarixlərində keçmiş Yuqoslaviyanın Belqrad şəhərində ilk Qoşulmama Hərəkatı Zirvə Görüşü keçirildi və rəsmi təsis prosesi başa çatdı. Bu Zirvə Görüşü Asiya və Afrika dövlətlərinin beynəlxalq siyasətdə yeni yol seçdiyini dünyaya bəyan etdi. Onlar Qərbin, Şərqin geosiyasi təsir dairəsinə daxil olmağa razılaşmayıb beynəlxalq hüquq çərçivəsində bərabərhüquqlu əməkdaşlığa və sülhə üstünlük verdilər. Üzv dövlətlər Qoşulmama Hərəkatının əsas prinsiplərinə - yəni "Bandunq prinsipləri"nə sadiqlik nümayiş etdirməlidirlər. Bu prinsiplər dövlətlərin müstəqilliyini, suverenliyini və ərazi bütövlüyünü qorumağı, daxili işlərinə qarışmamağı, iqtisadi və siyasi əməkdaşlığın inkişafına töhfə verməyi özündə ehtiva edir.




Dünya siyasətində təsir gücünə malik böyük təşkilatlar adətən nəhəng binalarda yerləşən qərargahlarla, daimi idarəetmə strukturları ilə tanınır. Lakin Qoşulmama Hərəkatı bu ənənəvi modeldən fərqlənir. Onun daimi mənzil-qərargahı yoxdur, lakin bu, hərəkatın gücünü və qlobal siyasətdə oynadığı rolu heç də azaltmır. Əksinə, onun çevik və dinamik əsaslı fəaliyyət göstərdiyini sübut edir. Qoşulmama Hərəkatının fəaliyyətinin əsas koordinasiya mexanizmi Büro adlanan strukturdur. Bu orqan qurum daxilində əlaqələndirməni həyata keçirərək üzv dövlətlərin beynəlxalq platformalarda, xüsusilə də BMT çərçivəsində vahid mövqedən çıxışını təmin edir. Hərəkatın sədri olan dövlətin BMT yanında daimi nümayəndəsi Büronun rəhbəri funksiyasını yerinə yetirir. Qoşulmama Hərəkatına üzv olmaq istəyən dövlətlər onun fundamental prinsiplərinə sadiqliklərini ifadə etməli və rəsmi şəkildə müraciət etməlidirlər. Hər bir üzv dövlət beynəlxalq hüquqa hörmət, suverenliyə müdaxilə etməmək, bərabərhüquqlu əməkdaşlıq və sülhün təşviqi prinsiplərinə riayət etməlidir. Qəbul prosesi konsensus yolu ilə həyata keçirilir, bu da Hərəkatın daxili birliyini və üzvlər arasındakı həmrəyliyi qorumağa xidmət edir. Azərbaycanın bu nüfuzlu Hərəkata qoşulması da məhz onun beynəlxalq arenada müstəqil və balanslı siyasət yürütmək prinsipindən irəli gəldi. Öz xarici siyasətində heç bir hərbi alyansa qoşulmamaq xəttini seçən Azərbaycan Respublikası 26 may 2011-ci ildə İndoneziyanın Bali adasında keçirilən toplantıda Hərəkata üzv dövlətlərin yekdil dəstəyini qazanaraq Qoşulmama Hərəkatına tamhüquqlu üzv kimi qəbul edildi. Bu addım ölkəmizin beynəlxalq diplomatiyada daha aktiv rol oynamasına, yeni qlobal təşəbbüslərlə çıxış etməsinə və geosiyasi müstəvidə təsir imkanlarını genişləndirməsinə şərait yaratdı. Bu gün Azərbaycan Qoşulmama Hərəkatının aparıcı qüvvələrindən birinə çevrilib. Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz təsisatın qlobal siyasətdəki çəkisini artırmaq, onun real təsir gücünü daha da möhkəmləndirmək üçün mühüm təşəbbüslərlə çıxış edir, Hərəkatın gələcəyinə mühüm töhfələr verir. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Qoşulmama Hərəkatının gündəliyinə yeni, daha dinamik və real təsir gücünə malik mövzular daxil edilib. Dünyada baş verən siyasi proseslər göstərir ki, güc balansı dəyişir, beynəlxalq münasibətlərin yeni mərhələsi başlayır. Bu prosesdə Qoşulmama Hərəkatının daha fəal olması, beynəlxalq təşkilatların fəaliyyətinə təsir etməsi üçün real imkanlar mövcuddur.

**Nəzrin ELDARQIZI,**
**"Respublika".**